# Azərbaycanlı şairin kitabı Türkiyədə çap olunub

8 oktyabr / 2020




Gənc şair Ramil Əhmədin "Zaman tuneli" adlı kitabı Türkiyə türkcəsində işıq üzü görüb. Mədəniyyət Nazirliyindən verilən məlumata görə, şair-tərcüməçi Yurtsevən Şənin türkcəyə çevirdiyi əsər Türkiyənin "Zengin Yayıncılık" nəşriyyatı tərəfindən 5000 tirajla nəşr olunub. Kitab Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə 2016-cı ildən həyata keçirilən "Azərbaycan Kitabının Dünyaya Tanıdılması" (AKDT) layihəsi çərçivəsində, "Azərbaycan Ədəbiyyatı Gənclik Seriyası" üzrə çap edilib. Məqsəd istedadlı gənc Azərbaycan şair və yazıçılarının Türkiyədə tanıdılmasıdır.